## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN KAMAL ABDULLA HAQQINDA SÖYLƏDİKLƏRİ

Kamal Abdulla həm elm, həm ədəbiyyat, həm təhsil təşkilatçılığı sahələrində yorulmadan, məharətlə fəaliyyət göstərir. O, bədii yaradıcılığın müxtəlif janrlarının, elm və təhsil təşkilçılığı kimi müxtəlif sahələrin fəzalarında yorulmadan, məharətlə dolanır.

***Tofiq Hacıyev,***
***akademik, tənqidçi***

Mən Kamal Abdullanı 80-ci illər əsərlərindən tanıyıram. O vaxt da gənclər arasında indiki qədər sevilirdi, oxunurdu. Kamal Abdulla çox dəyərli Azərbaycan alimi və yazıçısıdır. Kamal müəllim "Dədə Qorqud" mövzusu ilə bağlı çoxlu əsərlər yazıb, çoxlu anlayışlar gətirib. Onların çoxu vaxtilə müzakirə olunub və indiyə qədər də müzakirəsi bitmir. Kamal müəllimin seçilmiş əsərləri çap olunur. Onların siyahısına, əsərlərinə baxanda görürük ki, heç biri bir-birini təkrar etmir, hər biri orijinaldır, yenidir. Kamal Abdulla Azərbaycanın çox dəyərli alimlərindəndir. Onun Azərbaycan dilinin qrammatikası, sintaksisin ayrı-ayrı məsələlərinə dair ciddi tədqiqat əsərləri var.

***Nizami Cəfərov,***
***akademik***

Kamal Abdulla Azərbaycan ədəbiyyatının və elmi fikrinin sərhədlərindən kənara çıxan, dünyada qəbul olunan insandır.

Postmodernizmin cərəyanı Azərbaycan ədəbiyyatında məhz Kamal Abdullanın ardıcıl fəaliyyəti ilə populyarlaşıb. Və Kamal Abdulla Azərbaycan postmoderizm ədəbiyyatının yaradıcısıdır. Bu, defakto belədir. Onun qədər postmeodernist ədəbiyyata davamlı, ardıcıl olan, hər dəfə bir-birindən fərqli yeni əsərlər yazan, bu ədəbiyyatı kütləviləşdirən ikinci bir yazıçı göstərmək çətindir.

***İsa Həbibbəyli,***
***akademik***

Kamal müəllim geniş diapazonlu, yüksək intellektli bir ziyalıdır, ona böyük hörmətim var.

***Möhsün Nağısoylu,***
***akademik***

Yeni söz demək, yeni nəfəs ortaya qoymaq Kamal müəllimin çoxşaxəli yaradıcılığının mühüm elementlərindəndir. Kamal Abdulla həmişə yeniliyə doğru addımlayır. Həm bədii, həm də elmi yaradıcılıqda biz bunun şahidi oluruq. Yazıçının, şairin, alimin əsas göstəricilərindən biri öz mühitini yaratmaqdır. Kamal müəllimin bu gün də gördüyü işlər lazım olan mühiti yaratmaqdan, sağlam gənclər yetişdirməkdən ibarətdir.

***Muxtar İmanov,***
***akademik***

Bəzi ədəbi tənqidçilər Kamal Abdullanı kimlərəsə bənzətmək istəyində olublar və yenə də bu istəkdə olanlar var. Amma Kamal Abdulla heç kimə bənzəmir və bənzəmək də istəmir. Bu da onun doğal haqqıdır.

***Vaqif Abbasov,***
***akademik***

Kamal Abdulla dövlətçilik baxımından, ictimai-siyasi fəaliyyət baxımından mühüm işlər görmüş şəxsiyyətdir. Təsadüfü deyil ki, Kamal dövlət müşaviri səviyyəsinə qədər yüksələ bilib. Kamal nə ilə məşğul olubsa, həmin fəaliyyətin ən yüksək zirvəsinə çatıb. Mən hesab edirəm ki, bu hər adama nəsib olmur. Bu cür genişşaxəli fəaliyyət göstərən ikinci adamı tanımıram. Kamal Abdulla

müxtəlif zəngin ideyalarla dolu adamdır və bu ideyaları həyata keçirmək üçün hər zaman durmadan çalışır.

***Çingiz Hüseynzadə,***
***akademik***

Kamalda ədəbi duyum var və o, ədəbiyyatımıza "maraqlı yeniliklər" gətirib. "Kamal Abdulla bizim çox gözəl ziyalımızdır. O, öz yaradıcılığı ilə ədəbiyyatımıza maraqlı yeniliklər gətirib. Gözəl ədəbi duyumu olan yazıçıdır. Kamal bəy mənim dostumdur, xətrini çox istəyirəm. O, eyni zamanda çox dəyərli alimdir. Təkcə bədii deyil, elmi əsərləri da maraqlı və dərindir. Yaradıcılığına böyük maraq göstərirəm.

***Anar,***
***Xalq yazıçısı***

Kamal hələ cavan çağlarından Azərbaycan folklorunu uca tuturdu və bu ucalıq bu gün də onun yaradıcılıq aurasının içindədir. O, bu folklorun elmi-nəzəri təsnifatı naminə xüsusi bir ehtiras və şövq ilə çalışır və onun bədii yaradıcılığı da ən sıx tellərlə folklora - bunu bir daha təkrar edirəm - ilk növbədə də "Dədə Qorqud"a bağlıdır.

***Elçin Əfəndiyev,***
***Xalq yazıçısı***

Kamal Abdullanın kitablarını oxuyanda, onların siyahısına baxanda görürsən ki, o, heç özü üçün yaşamayıb. Bu baxımdan mən onun ömrünü örnək hesab edirəm. Xatırlayıram ki, Meydan Hərəkatının ən qaynar vaxtında Kamal Abdulla öndə idi, insanlara doğru yol göstərirdi. O vaxtlar Kamal müəllim ziyalılıq mövqeyini göstərirdi və bu mövqeni o hər zaman davam etdirdi. Kamal həm qələm adamıdır, həm də çox görkəmli ictimai-siyasi xadimdir. O, müstəqil Azərbaycan dövlətinin inkişafında böyük xidməti olan insandır. Kamal Abdullanı hər zaman gənclərin yanında olan, onlara doğru yol göstərən xeyirxah insan kimi həmişə yüksək dəyərləndirmişəm.

***Sabir Rüstəmxanlı***
***Xalq şairi***

Kamal Abdulla mənim əziz dostumdur. Kamal Abdullanın yaradıcılığında mən Dədə Qoquda ata-oğul münasibəti görmüşəm. Dədə Qorqudun dünya ədəbiyyatına çıxmağında, dünya ədəbiyyatında tanınmağında heç şübhəsiz Kamalın böyük əziyyəti, xidmətləri, övladlıq borcu var. Şair öz hissiyyatını yazır, şeir ürəyin kardioqrammasıdır. Kamalın bütün əsərləri özüdür, mətnləri onun ömüründən keçir. Kamal elmlə ədəbiyyatın, elitarla kütləvinin, şeirlə nəsrin qovuşma nöqtəsidir.

***Ramiz Rövşən***
***Xalq şairi***

Kamal Abdullanın ədəbi qayəsi və bəlkə də yaradıcılıq ideyası azərbaycanlı identifikasiyasının mənəvi və ruhani mənbəyini tarixin dərin qatlarından qələmlə qazaraq gün üzünə çıxarmaqdır. Tarixə açıq münasibət, tarixi obrazlara tamamilə fərqli yanaşma tərziylə mübahisə predmetinə çevrilən xeyli seçmələr, yeni metaforalar vardır. Onun üçün tarix öz baxış bucağından təhlil olunur, xronoloji qanunauyğunluğun rolu unudulur, bütün personajların davranışları, süjet xəttində yer alan hadisələrin tarixlə əlaqələndirilməsi formal xarakter daşıyır, yuxu üzərindən keçidlərinin hamısı bədii təfəkkürünün obrazları kimi həzm olunur.

***Fazil Mustafa***
***fəlsəfə üzrə fəlsəfə doktoru, ictimai xadim***

Akademikin bir sıra elmi əsərləri, o cümlədən, multikulturalizmə aid yazdığı məqalələri də xarici ölkə mətbuatlarında yer almışdır. Kamal Abdulla həmişə olduğu kimi bu gün də Azərbaycanın mənəvi-siyasi mövqeyini, ədəbiyyatını və mədəniyyətini ləyaqətlə qorumaq missiyasını inamla davam etdirməkdədir. Azərbaycan Dillər Universitetinin rektoru kimi fəaliyyətində də o, bir sıra uğurlara imza atıb. Tədris müəssisəsində Multikulturalizm, Azərbaycanşünaslıq, Rusiyaşünaslıq laboratoriyaları açılıb**.**

***Sevinc Zeynalova***
***filologiya elmləri doktoru***

Əgər Kamal Abdullanı bir neçə sözlə ifadə etmək lazım gəlsə, mən onu Öz İçində Gizlənən Adam kimi səciyyələndirərəm. Məncə, onun bu xarakteri və obrazı istər ictimai fəaliyyətində, istərsə də əsərlərində özünü göstərir.

***Rəşad Məcid,***
***yazıçı***

Mənə elə gəlir ki, Kamal müəllimin yaradıcılığı üçün əsas xarakterik cəhətlərdən biri keçmiş zaman ənənəsidir. Əsərlərinin adlarına da baxanda bu görünür. Məsələn, “Əvvəl-axır yazılanlar”, “Tarixsiz gündəlik” və s. Bu əsərlərin hamısında tarixə, keçmişə səyahətdən söz açılıb.

***Qismət Rüstəmov,***
***şair, tərcüməçi***

Kamal Abdulla bir yazıçı olaraq oxucularını karvanların, qanunlar tətbiq edən şahların və onların müdrik məsləhətçilərinin dövrünə qaytarır … bir rejissorun etdiyi kimi, yəni sözlərdən vizual səhnələr yaratdığı kimi.

***Florian Rupp,***
***professor***

Onda folklor fantaziyasını Nyuton aləminin qanunları ilə birləşdirən nizamlayıcı alim təfəkkürü var.

***Aleksandr Bondarev,***
***yazıçı, professor***

Onun yaradıcılığından bəhs etdiyim kitabımı "Taleyin labirintlərində sirr oyunları" adlandırmışam, onu müasir ədəbiyyatın ən böyük ustadlarından birinə - Kamal Abdullaya həsr etmişəm. Bunlar çox güman ki, ustad rəssamın portretinə toxunan cizgilərdir. Bu, düşünən oxucunun Kamal Abdulla mövzusu ilə bağlı fantaziyalarına fərqli baxışıdır. Çünki Kamal Abdullanın əsərlərini fantaziya adlandırmaq olar. Bu, çox güman ki, Kamal Abdullanın şəxsiyyətinin və yaradıcılığının görünməyən tərəfidir, məncə, onun yaradıcılığı əsərlərindəki sirləri açmaqla araşdırılmalıdır. Kamal Abdullanın bütün yaradıcılığı sirdir.

***Lyudmila Bejenaru,***
***Azərbaycan Multikulturalizm Mərkəzinin sədri***